Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

**Faiq Ələkbərli**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**

# Cəlil Məmmədquluzadənin dünyagörüşündə milli maarifçilik və azərbaycançılıq

**II Yazı**

***Cəlil Məmmədquluzadə bir tərəfdən sosial-demokrat ideyalara meyil göstərdiyi halda, digər tərəfdən isə İslam dinini dolayı da olsa, tənqid etmişdir. O yazırdı ki, məscidlərə gedənlər yalnız fəhlə, hammal, dəllək, pinəçi, dilənçi, nalbənd, eləcə də kasıb məşədilər, kərbalayılar və hacılardır: 'Əgər əcnəbi millətin birinin yolu bizim məcsidlərə düşsə, elə yəqin edər ki, müsəlman içində bir dənə də rəğbətli, dövlətli, səliqəli, təmiz və nəcib adam, bir dənə də bəy, xan, qulluqçu, oxumuş və sahibimənsəb yoxdur; yəqin edər ki, bizim müsəlman camaatı ibartədir məhz cırıq-mırıq, ac və kasıb fəhlə-fühlədən, avam məşdəi və kərbəlayılardan. Niyə xan və bəylərimiz, oxumuş və sahibi-mənsəblərimiz məsciddən qaçırlar?".***

C.Məmmədquluzadənin fikrincə, ruhanilərin, mollaların təbliğatı nəticəsində müsəlmanlar inkişaf edə bilmirlər. Buna səbəb də müsəlmanlar arasında mövcud olan şeytandır. Məmmədquluzadə hesab edir ki, şeytan yalnız müsəlman millətləri arasında modda olan bir məxluqdur. Çünki müsəlman nə pisi işi varsa hamısını şeytanın adına yazır. Bunun nəticəsidir ki, 35 yaşına çatan müsəlman cavan meşədə ayıdan, canavardan qoruxmadığı halda, evdə cindən, şeytandan, divdən, quleybanıdan qorxur. O yazırdı ki, hər bir işdə, hər bir məqamda, məscid və minbərlərdən başlamış evlərimizə, küçələrimizədək öz qəlbələrimizi şeytanın adı ilə doldurmuşuq. Halbuki əsl mömin müsəlman şeytandan uzaq olmalıdır.

Quranda xəbər verilən axirət dünyasındakı cəhənnəm və cənnət məsələsinə gəlincə, onun fikrincə, mömin müsəlmanların cənnətdə süd gölündə hurilərlə şənlənəcəyi, kafirlərin isə cəhənnəm odunda qovrulucağı ilə deyilənlər heç də həqiqətəuyğun gəlmir. Bu baxımdan Məmmədquluzadə bu dünyadan imtina edib axirət dünyasında xoşbəxt yaşamaq arzusunda olanlara istehza edir, cənnətin bu dünyanın özündə olduğuna inanırdı. O, yazırdı: "Ey mənim ruhani qardaşlarım! Yadınızdadır ki, mən naxoş olan vaxt bir gün gəlmişdiniz, deyirdiniz: ay mola Cəlilağa, sən niyə ölüdən qorxursan? Qoy qorxsunlar günahkarlar və bəd əməl sahibləri. Sən ki, Allaha şükür, behşitibərinə qalxıb cənnətməkan və Firdovsaşiyan və məlaikilərlə həmsinc olacaqsan. İndi mən buraya gəlib həmin sözlərinizi yadıma salıram və ürəyim az qalır qanla dolsung Yenə həd-



siz şükürlər olsun dünyada gördüyüm günlərə! Ax o günlər, o dəmlər, o zamanlar".

***Mirzə Cəlil müsəlmanlar arasında sünni-şiə davasını da ikiüzlü mollaların, ruhanilərin ortaya atdığını yazırdı: "Avam nə bilir sünnü nədir, şiə nədir? Molla örgədib. Avam nə bilir ki, şiə sünnünün və sünnü şiənin düşmənidi? Molla örgədib". 4 Onun fikrincə, bu məsələdə din xadimlərinin məqsədi avam müsəlmanları bir-birinə qırdırıb varlanmaq və nüfuz sahibi olmaqdır.***

C.Məmmədquluzadə "Ölülər" tragikomediyasında (1909) kefli İskəndərin dili ilə yalnız Azərbaycan türk cəmiyyətinin nə qədər geridə qalması, cəhalət və nadanlığın qurbanı olması, ruhanilərin ikiüzlülüyü deyil, həmçinin dinin daşıdığı məzmun və mahiyyət də müəyyən qədər tənqid hədəfi olmuşdu.5 Bunu, müəllifin "Molla Nəsirəddin" jurnalında çap olunan yüzlərlə satirik məqalələrindən və sovet dövründə yazdığı "Xatiratım" memuarından da görmək olar.

Məmmədquluzadə məhərrəmliklə də bağlı bir çox felyetonlar və məqalələr yazmışdır. Bizcə, Məmmədquluzadənin məhərrəmliyə həsr etdiyi məqalələrinin ümumi ruhunu bu mərasimlə bağlı həyata keçirilən və islamın da ümumi ruhuna zidd olan əməllər ("Heydər təpmək", baş yarmaq, zəncir vurmaq və s.) təşkil etmişdir. "Baş yarmaq" məqaləsində o yazırdı ki, artıq yalnız elm adamlarının deyil, hətta bəzi din xadimlərinin də məhərrəmlikdə, xüsusilə Aşura günündə baş yarmağın, zəncir vurmağın günah iş olduğunu bəyan etmələri müsbət haldır. Ancaq bu hal müvəqqəti xarakter daşımamalı və həmin ruhanilər hər ildə bir fikrə düşməməlidirlər. O yazırdı: "Bir gün deyirik: "qatıq ağdır" - deyirsiniz: "bəli". Sabah kefimiz istəyəndə deyirik: "qatıq qaradır" - deyirsiniz: "bəli". Yazıq müsəlmanlar! Bakıda qazılar buyururlar ki, "baş yarmaq gunahdır", - deyirsiniz: "bəli"; Naxxıvanda buyururlar ki, "yarmamaq günahdır" - deyirsiniz: "bəli"".

Onun fikrincə, dünyada elə bir məmləkət və millət yoxdur ki, orada bir ruhani, yaxud da alim minbərə çıxaraq bir gün öz millətinin başının yarılmasının, qanının tökülməsinin lehinə, sabahısı gün isə əleyhinə olsun: "Mənim yəqinimdir ki, əgər Bakı camaatının yerinə Pataqoniya camaatı da olsaydı, ya Sibirin meşədə yaşayan tayfalarından biri olsaydı, yenə mollaların bu sözlərinin qabağında bir cavab verərdilər; deyərdilər ki, "axır, ay ağalar, bu nə sözlərdir danışırsınız? Bu yekəlikdə zarafat olmaz. İndiyədək bizə buyururdunuz: "Müsəlmançılıq ibarətdir baş yarmaqdan və mollalara sitayiş etməkdən" Amma indi özgə cür danışırsınız. Bizi elə dolamamısınız ki?!".

***O hesab edirdi ki, məhərrəmliyin bəzi müsəlmanlar tərəfindən ifrat şəkildə qeyd edilməsinin nəticəsi olaraq 'məhərrəmlik yaxınlaşır" sözlərini eşidən həqiqi müsəlmanlar ölkədən baş götürüb qaçırlar. Onun fikrincə, buna səbəb məhərrəmliyin İmam Hüseynin (ə) şəhadətinə uyğun olaraq təziyə və ibadət şəklində həyata keçirilməməsi ilə bağlıdır. O, yazırdı: "Çünki küçələri bambılı kimi atılıb düşə-düşə dolanmaq, öz əli ilə öz başını-gözünü qana boyamaq, nəinki avamlıq, vəhşilik, bəlkə də dəlilikdən də dəlilikdir". 8 Onun fikrincə, buna son vermək üçün məhərrəmliyin və yaxud Aşura gününün əsl mahiyyəti müsəlmanlara doğru çatdırılmalıdır.***

Hətta, müsəlmanlar Aşura günündə həyata keçirdikləri dini oyunları ilə avropalıların da marağına səbəb olmuşdur. Belə ki, onlar da bu məsələyə ciddi diqqət yetirir və bir neçə məsələni öyrənməyə çalışırlar: 1) əgər baş yarmaq şəriətdə varsa, nə səbəb indiyə qədər baş yaranlar arasında bir molla görsənməyib? 2) vaxtlarını qumar və içki məclislərində keçirən müsəlman "intellgentləri" nə qəsd ilə Aşura günü dəstə qabağına düşüb baş yaranların qanlarını dəsmalları ilə silirlər? 3) niyə baş yaranlar yalnız avamlar və cahillərdir, yəni onların arasında maarif əhli yoxdur? Məmmədquluzadə əcnəblərin bu suallarına cavab verə bilmədiklərini desə də, ancaq bütün bunlardan belə bir nəticə çıxartdıqlarını yazmışdır: "Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axıtmalı qanlarımız, ehsan etməli pullarımz varsa, - gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir ki, həm Allah, həm də Həzrəti Hüseyn razı qalsın. Yoxsa, Tiflisin, Bakının küçələrində qışqıra-qışqıra gəzib, yalançılıqdan başımızı cızıb bir az qan axıtmaq Hüseyn övladına və Rüstəm nəslinə yaraşan igidlik deyil. Bu gün Kərbala meydanı Azərbaycan meydanıdır!".

***Bu baxımdan Məmmədquluzadə hesab edirdi ki, məhərrəmliklə bağlı yığıncaqlar keçirilməli və həmin toplantılarda din xadimləri ilə yanaşı, elmli və bilikli insanlar da iştirak etməlidirlər. Onlar birlikdə məhərrəmliyin əsl mahiyyəti ilə bağlı müsəlmanları bilgiləndirməli və onları başa salmalıdırlar ki, İmam Hüseyni (ə) layiqincə və təmkinlə yad etməlidirlər. O yazırdı: 'Bu yığıncaqlardan və bu danışıqlardan murad odur ki, camaat təziyənin nə olduğunu başa düşsün və məhərrəmlikdə təziyə saxlamalı olsa, məscidə və qeyri ibadətxanaya daxil olub imamı layiqincə və təmkinlə yad etsin və dəxi küçələrə düşüb nərə etməklə dünyanı öz vəhşiliyinə şahid çəkməsin. Mənim sözüm orasında deyil; sözüm orasındadır ki, indi haman yığıncaqlarda natiqin biri ki, məsələn deyir – qardaşlar! Baş yarmayın və bədəninizi zəncirlə yaralamayın, çünki başı insana Allah-təala ondan ötrü verməyib ki, baş sahibi öz əli ilə öz başını yaralasın, ondan ötrü veribdir ki, məsələn, birinin başına yara toxunanda, o biri insan başını işlətsin və bu yaraya bir dərman tapsın. Bədəni ondan ötrü Allah-təala öz mömin bəndələrinə verməyib ki, mömin bəndə öz yumruğu ilə öz döşünü zədələsin; ondan ötrü verib ki, insan döşünü qabağa verib, bir tərəfdən əhlü əyalına çörək qazansın və lazım olan yerdə də döşünü qabağa verib vətənini mühafizə etsin".***

> ***"Ey mənim ruhani qardaşlarım! Yadınızdadır ki, mən naxoş olan vaxt bir gün gəlmişdiniz, deyirdiniz: ay mola Cəlilağa, sən niyə ölüdən qorxursan? Qoy qorxsunlar günahkarlar və bəd əməl sahibləri. Sən ki, Allaha şükür, behşitibərinə qalxıb cənnətməkan və Firdovsaşiyan və məlaikilərlə həmsinc olacaqsan. İndi mən buraya gəlib həmin sözlərinizi yadıma salıram və ürəyim az qalır qanla dolsung Yenə hədsiz şükürlər olsun dünyada gördüyüm günlərə! Ax o günlər, o dəmlər, o zamanlar"***

> *"Bu yığıncaqlardan və bu danışıqlardan murad odur ki, camaat təziyənin nə olduğunu başa düşsün və məhərrəmlikdə təziyə saxlamalı olsa, məscidə və qeyri ibadətxanaya daxil olub imamı layiqincə və təmkinlə yad etsin və dəxi küçələrə düşüb nərə etməklə dünyanı öz vəhşiliyinə şahid çəkməsin. Mənim sözüm orasında deyil; sözüm orasındadır ki, indi haman yığıncaqlarda natiqin biri ki, məsələn deyir – qardaşlar!*

***Azərbaycan Respublikasının Medianın İnkisafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur***